| | |
|---|---|
| ***«Dövlət qeydiyyatına alınmışdır»*** | ***«Təsdiq edirəm»*** |
| ***Azərbaycan Respublikasının*** | ***Azərbaycan Respublikasının*** |
| ***Ədliyyə Nazirliyi*** | ***İqtisadi İnkişaf Nazirliyi*** |
| ***Qeydiyyat № 2922*** | ***Əmr № 68*** |
| ***07 oktyabr 2002-ci il*** | ***30 sentyabr 2002-ci il*** |
| ***Nazir*** | ***Nazir*** |
| ***F.MƏMMƏDOV*** | ***F.ƏLİYEV*** |

# Azərbaycan Respublikasında vahid lisenziya reyestrinin aparılması Qaydaları

## 1. Ümumi müddəalar

1.1. Bu Qaydalar Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 02 sentyabr tarixli 782 nömrəli Fərmanı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasında bəzi fəaliyyət növlərinə xüsusi razılıq (lisenziya) verilməsi haqqında Qaydalar»a əsasən hazırlanmışdır və lisenziya verən icra hakimiyyəti orqanları tərəfindən təqdim olunan məlumatlar əsasında ölkədə vahid lisenziya reyestrinin aparılması qaydalarını müəyyən edir.

1.2. Azərbaycan Respublikasının vahid lisenziya reyestrini Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyi aparır.

1.3. Azərbaycan Respublikasında vahid lisenziya reyestrinin aparılması informasiya sisteminin ümumi prinsiplərinə əsaslanan verilmiş lisenziyalar haqqında məlumatların məcmusu olan informasiya sistemidir.

## 2. Vahid lisenziya reyestrinə daxil edilən məlumatlar

2.1. Lisenziya almış hüquqi və fiziki şəxslər barədə məlumatın vahid lisenziya reyestrində uçota alınması üçün lisenziya verən icra hakimiyyəti orqanlarının məlumatlarından istifadə olunur.

2.2. Vahid lisenziya reyestrinə daxil ediləcək məlumatlar bu Qaydaların 1 saylı Əlavəsində göstərilən formada tərtib və təqdim edilir (əlavə olunur).

2.3. Verilmiş lisenziyalara dair dəyişikliklər olduqda (hüquqi şəxs yenidən təşkil edildikdə, fiziki şəxsin vəsiqəsinə dair məlumatlar dəyişdirildikdə, lisenziya fəaliyyəti dayandırıldıqda, lisenziya ləğv olunduqda və s.) bu barədə Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyinə 3 (üç) gün müddətində məlumat təqdim edirlər.

2.4. Vahid lisenziya reyestri kağız daşıyıcılarında və elektron yazıları formasında aparılmalıdır.

## 3. Vahid lisenziya reyestrinin aparılması qaydaları

3.1. Lisenziyaların vahid reyestrinin aparılması sisteminə aşağıdakılar daxildir:

- xronoloji qaydada lisenziyaların reyestr jurnalının aparılması;
- ləğv edilmiş lisenziyaların reyestr jurnalının aparılması;

- uçota alınmış lisenziyaların reyestr məlumatlarında dəyişikliklərlə bağlı dəqiqləşdirmələrin aparılması.

3.2. Lisenziya verən icra hakimiyyəti orqanları hər ayın 10-dək verilmiş lisenziyalar haqqında məlumatı Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyinə kağız və maqnit daşıyıcıları şəklində təqdim etməlidirlər. Kağız daşıyıcısında təqdim edilən bu məlumat müvafiq icra hakimiyyəti orqanının səlahiyyətli şəxsi və həmin məlumatı hazırlayan məsul şəxs tərəfindən (onların soyadı, adı, atasının adı göstərilməklə) imzalanıb möhürlə təsdiq edildikdən sonra təqdim edilir.

3.3. Reyestrin aparılması üçün daxil olan məlumatların düzgünlüyünü yoxlamaq məqsədi ilə onlar lisenziyalarla tutuşdurulur.

3.4. Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi daxil olmuş məlumatların düzgünlüyünü yoxlayır və səhvlər olarsa, onların aradan qaldırılması barədə icra hakimiyyəti orqanlarına dərhal bildiriş göndərir.

3.5. Azərbaycan Respublikasında verilmiş bütün lisenziyaların reyestri açıq xarakter daşıyır. Verilmiş lisenziyalara dair məlumatlar, qanunvericiliyə uyğun olaraq dövlət və kommersiya sirrini təşkil edən lisenziyalar barəsində olan məlumatlar istisna olmaqla, informasiya alınması məqsədilə dövlət hakimiyyəti orqanları, hüquqi və fiziki şəxslər üçün açıqdır.

3.6. Vahid lisenziya reyestrində olan məlumatlar Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyi tərəfindən verilir. Bu Qaydaların 3.4. bəndində göstərilən subyektlər lisenziya barədə məlumat almaq üçün Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyinə yazılı surətdə müraciət edirlər. Məlumat alarkən fiziki şəxslər Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən olunmuş qaydada onların şəxsiyyətini təsdiq edən sənədi (şəxsiyyət vəsiqəsi və ya digər müvafiq sənədlər), hüquqi şəxslər isə – onların dövlət qeydiyyatını və nümayəndəsinin səlahiyyətlərini təsdiq edən sənədləri təqdim etməlidirlər.

3.7. Vahid lisenziya reyestrindən barəsində sorğu edilən lisenziyalar haqqında məlumat və ya məlumatın verilməsindən imtina qərarı Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi tərəfindən 10 gün ərzində verilməlidir.

## *4. Vahid lisenziya reyestrini aparan və lisenziya verən dövlət orqanlarının vəzifəli şəxslərinin məsuliyyəti*

4.1. Müvafiq icra hakimiyyəti orqanlarının lisenziya barədə məlumatları təqdim edən vəzifəli şəxsləri məlumatların tam və dəqiq olmasına görə qanunvericiliklə müəyyən edilmiş qaydada məsuliyyət daşıyırlar.

4.2. Lisenziya barədə məlumatları reyestrə daxil edən şəxs müvafiq icra hakimiyyəti orqanlarının lisenziya barədə verdikləri məlumatların tam və düzgün daxil edilməsinə görə qanunvericiliklə müəyyən edilmiş qaydada məsuliyyət daşıyır.

***«Azərbaycan Respublikası Mərkəzi İcra Hakimiyyəti Orqanlarının Normativ Hüquqi aktlarının Bülleteni»ndə dərc edilmişdir (2002-ci il, № 10-11, səh. 3) («VneshExpertService» LLC).***

*Əlavə 1*

# Vahid lisenziya reyestrinin aparılması üçün Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyinə təqdim olunacaq məlumatlar

| Sıra №-si | Lisenziya verən dövlət orqanının adı | Həyata keçirilməsinə lisenziya verilən fəaliyyət növü | Lisenziyanın seriyası və nömrəsi | Lisenziyanın qeydiyyat nömrəsi və verilmə tarixi | Hüquqi şəxslər üçün lisenziya verilən hüquqi şəxsin adı və hüquqi ünvanı; fiziki şəxslər üçün – adı, atasının adı, soyadı, şəxsiyyət vəsiqəsinə dair məlumat (seriya, nömrə, kim tərəfindən və nə vaxt verilmişdir, ünvanı) | Dövlət rüsumunun məbləği | Lisenziyanı imzalayan məsul şəxsin adı, soyadı və vəzifəsi | Lisenziyanın qüvvədə olma müddəti | Lisenziyaya dair aparılmış dəyişikliklər |
|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | | | | | | |
| | | | | | | | | | |
| | | | | | | | | | |
| | | | | | | | | | |

© VneshExpertService LLC